UOT 32; UOT 327; UOT 94

FİDAN XƏLİLOVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
"Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı
ORCID 0000-0002-5874-119X
phd.fidan.khalilova@gmail.com

ERMƏNİ MİLLİYYƏTÇİLİYİNİN FORMALAŞMASININ TARİXİ ƏSASLARI

DOI: https://doi.org/10.36719/2708-065X/109/191-196

Hər bir xalqın milli kimliyinin formalaşmasında özünəməxsus mənəvi-psixoloji keyfiyyətləri, adət-ənənələri, tarixi böyük rol oynayır. Bu səbəbdən, bir xalqın milli kimliyini, onun etnik-psixoloji xüsusiyyətlərini tədqiq edərkən keçdiyi tarixi inkişaf yolunu araşdırmaq əhəmiyyət daşıyır. Odur ki, bu məqalə erməni milliyyətçiliyinin yaranmasının təməlində duran tarixi faktları araşdırır. Müəllif məqalədə erməni milliyyətçiliyinin formalaşmasına təsir edən bir sıra amilləri vurğulayır. Belə ki, araşdırmada Birinci Dünya Müharibəsi zamanı Osmanlı İmperiyasında baş verən bir sıra hadisələr, həmçinin Fransız İnqilabı və onun təsirləri, erməni üsyanları və s. təhlil olunur. Bununla yanaşı məqalədə qeyd olunan dövrdə Rusiya-Osmanlı münasibətlərinin, o cümlədən digər dövlətlərin geosiyasi maraqlarının erməni milliyyətçiliyinin inkişafına təsirləri müəllif tərəfindən tədqiq olunur.

Açar sözlər: erməni milliyyətçiliyi, Osmanlı İmperiyası, Rusiya, Birinci Dünya Müharibəsi, Fransız inqilabı, erməni üsyanları.

Giriş. Hər bir cəmiyyət öz milli kimliyinə əsaslanan ideologiyanı formalaşdırmaq üçün müəyyən mərhələlərdən keçməlidir. Hər bir xalqın özünü doğru bir şəkildə qiymətləndirməsi və milli ideologiyasını formalaşdıra bilməsi üçün keçmişinə dərindən bələd olması vacibdir. Daha aydın ifadə etsək, hər hansı bir etnos və ya xalq kim olduğunu, hansı mənəvi-psixoloji keyfiyyətlərə malik olduğunu, adət-ənənələrini, tarixini, məruz qaldığı hadisələri yaxşı bilməlidir. Bu o deməkdir ki, bir xalqın milli kimliyini, onun etnik-psixoloji xüsusiyyətlərini tədqiq edərkən keçdiyi tarixi inkişaf yolunu araşdırmaq böyük əhəmiyyət daşıyır [4, s.52].

Erməni milliyyətçiliyinin tarixi fonu. Bu gün erməni kimi tanıdığımız millət özünü "Hayk", ölkəsini isə "Hayastan" adlandırır. Horenli Movses ermənilər urartulara əsaslandıraraq, erməni adını Urartu kralı III. Rusonun atası Aramudan (Erimena) gəldiyini iddia etmişdir, lakin mənbələrdə bu tərifin ermənilər tərəfindən də qəbul edilmədiyi bildirilir [6, s.11]. Erməni mifologiyasına görə, ermənilər Nuhun nəvəsi Haykın nəslindəndir, onun gəmisi Böyük Daşqından sonra quruya çıxıb. Yenə ermənilərə görə Kür, Araz, Dəclə və Fərat çaylarının keçdiyi torpaqlar, İncildə adı keçən "göyü sulayan dörd çay" Allah tərəfindən haylara (ermənilərə) verilmişdir [3, s.14].

Ermənilərin Xristianlıqdan əvvəlki dini dəqiq bilinməsə də, onların zərdüşti və bütpərəst olduqları güman edilir. Avedis Ahuranyana görə, "İbtidai arxaik ermənilər" qədim İran dininin - zərdüştiliyin bir qolu olan "od, xeyir və şər" prinsipinə əsaslanan atəşə sitayiş edirdilər. Erməni cəmiyyətinə din baxımından ən çox təsir edən mədəniyyət İran mədəniyyəti hesab olunurdu [10, s.57].

Onların indi daşıdıqları "erməni" adı dağ silsiləsinin, yəni sonradan məskunlaşdıqları torpaqlarda Göyçə gölündən başlayan və Van hövzəsinə qədər uzanan Ərmən dağlarının adıdır. Ermənilərin bu bölgəyə med tayfalarının işğalı zamanı gəldiyi təxmin edilir. Erməni adına ilk dəfə Bisütun yazılarında Armina və Arminiya kimi rast gəlinir. Arminiya satraplığı Van gölü hövzəsini, Arazın türk hissəsindəki vadiləri, Qərbdə Elazığ və Ərzincan bölgələrindən keçən Yuxarı Fərat hövzəsini əhatə edirdi. Eyni bölgə qədim Yunan və Roma mənbələrində Arminiyya, İslam dövrü ərəb mənbələrində isə Armaniya/Ormeniyye adlanır. Türk mənbələrində erməni terminə XV əsrə aid mənbələrdə rast gəlinir. Erməni ünsürünün bölgədə artıq mövcud olub-olmaması, yoxsa onların Urartu dövlətinin süqutu zamanı buraya köçmüş işğalçılar olması tarixçilər arasında mübahisə mövzusudur. Amma bir çox

tarixçilər əmindir ki, urartular erməni deyillər və Urartu mədəniyyətinin ermənilərlə heç bir əlaqəsi yoxdur [12, s.49].

Erməni millətçiliyinin və separatçı fəaliyyətlərin mənşəyi. Günümüzdə erməni məsələsi deyiləndə 1915-ci il deportasiya hadisəsi yada düşür və belə olan halda bu mövzu ilə bağlı yetərli məlumatı olmayan hər kəsin beynində elə bir təəssürat yaranır ki, sanki 1915-ci il erməni deportasiyasından əvvəl və ya sonra heç bir erməni məsələsi olmayıb. Buna görə də əsasən türk müəllifləri tərəfindən erməni məsələsi üç tarixi dövrə görə araşdırılır:

1. Deportasiyadan əvvəlki dövrdə ermənilər;
2. Birinci Dünya Müharibəsi illərində ermənilər və deportasiya;
3. Birinci Dünya Müharibəsindən sonrakı erməni milliyyətçi fəaliyyətləri.

Ermənilər dəstəkləyən bir çox Qərb ölkələrinin və ermənilərin hər zaman deportasiya və qondarma soyqırımı məsələsini diqqət mərkəzində saxlaması və bu iddialara qarşı soyqırımının olmadığını tarixi sənədlərlə sübut edən araşdırmaların ön planda olması bəzi hallarda deportasiyadan əvvəl və sonra baş verən hadisələrin nəzərə alınmamasına səbəb olur. Bu səbəbdən ermənilərin milliyyətçilik ideologiyasının əsaslarının daha qədimə dayanması, o cümlədən bu ideyaların günümüzdə də təsirli bir şəkildə davam etməsi gözardı edilməməlidir [7].

Belə olan halda obyektiv bir sual yaranır? XIX əsrin ikinci yarısına qədər Osmanlı İmperiyası ilə heç bir problem yaşamayan, Avropanın böyük dövlətlərinin siyasi və diplomatik gündəmində yer almayan ermənilər birdən-birə Osmanlı daxili siyasəti və beynəlxalq diplomatiyasının gündəminə necə daxil oldular? Bu səbəbləri ilk növbədə dəyişən dünya düzənində axtarmaq lazımdır. Dəyişən və inkişaf edən dünyada Fransa, İngiltərə, Rusiya və ABŞ İmperiya torpaqlarından daha çox faydalanmaq üçün öz mübarizələrində qeyri-müsəlmanlardan istifadə edirdilər [7].

Erməni millətçiliyi və erməni milləti ideyasının doğulması. Bəzi mənbələrdə erməni millətçiliyinin doğulması 1915-1916-cı illər arasında araşdırılır ki, bu da erməni diasporunun fəaliyyətə başladığı dövrdür. Diaspora 1915-ci il hadisələrindən sonra soyqırımı iddiaları ilə ortaya çıxdı. Bu vəziyyəti erməni millətçiliyi hərəkatı kimi təyin etmək olar. Şübhəsiz ki, 1915-ci ildən etibarən diasporda iştirak artmışdı, lakin diaspor fəaliyyəti əslində 5-ci əsrə gedib çıxır. Bu dövrdə Anadolu, Balkanlar və Bolqarıstanda ermənilərin yaratdığı diaspor icmaları müşahidə olunmuşdur. Tarix boyu fəaliyyətlərini davam etdirən bu icmaların dünyada mövcudluğu get-gedə artmışdır [2, s.71].

Ermənilər Osmanlı İmperiyasında yaşayan etnik qruplardan sadəcə biri idi. Osmanlı İmperiyası insan hüquq və azadlıqları baxımından öz sərhədləri daxilində yaşayan bütün millətlərə olduğu kimi ermənilərə də eyni münasibətdə idi. Bu mənada ermənilər dövlətin, demək olar ki, hər bir pilləsində işləyə bilirdilər, hətta türklərdən demək olar ki, fərqlənmirdilər. Lakin xüsusilə XIX əsrdə Osmanlı İmperiyası ilə ermənilər arasında siyasi, hətta sosial müstəvidə qarşıdurma yarandı və bunda erməni millətçiliyi ideyası mühüm rol oynadı [11].

Osmanlı ermənilərinin rəsmi statusa yiyələnməsi 1461-ci ildə İstanbulun fəthindən sonra Bursadakı ermənilərin Ruhani Rəhbəri Hovakimin Fateh Mehmet tərəfindən İstanbula gətirilərək orada bütün Osmanlı ermənilərini təmsil edən Erməni Patriarxlığının yaradılması ilə başladı. İstanbuldakı Erməni Patriarxlığının geniş hüquqları var idi. Təmsil etdikləri cəmiyyətin bütün dini və ictimai işlərinin məsuliyyəti bu patriarxlığa həvalə edilmişdi. Onların da öz məhkəmələri və həbsxanaları var idi. Onlar dövlət qarşısında məsul orqan kimi xərac toplayır, mülki və cinayət işlərinə, nikah işlərinə məhkəmədə baxırdılar. Bu vəziyyət Patriarxlığı siyasi cəhətdən də gücləndirdi və xarici dövlətlər Patriarxlığı ermənilərin milli və siyasi hakimiyyəti kimi tanıyırdılar [8, s.25-60].

Ermənistan dövlətini qurmaq üçün ilk cəhd İsrail Ohrid adlı Qarabağ erməni din xadimi tərəfindən edilib.1698-1711-ci illərdə Fransa, İngiltərə, Almaniya və Rusiyanı gəzərək Ermənistanı qurmaq üçün səlib yürüşü təşkil etməyə çalışan Ohrid rus çarı Pyotra (1683-1725) Qafqaz və xüsusən də iki xristian icması, ermənilər və gürcülər haqqında məktub yazır. Onun verdiyi məlumatlar rusların diqqətini bu bölgəyə yönəltməyə kifayət edirdi. Ermənilərin ruhani lideri Katogikos Hovsep Arqutyan Osmanlı İmperiyası ilə İran arasında divar yaratmaq və Rusiyanın ambisiyalarını reallaşdırmaq üçün "Ararat krallığı" adlı layihə hazırlamışdı. Bu layihə 2000 nüsxə çap edilib yayılmış, lakin İkinci Katerinanın ölümü ilə iflasa uğramışdır [12, s.25].

Fransız inqilabı və erməni milliyyətçiliyi. Həmin dövrdə ermənilər arasında sürətlə yayılan millətçilik ideyasının yaranmasına zəmin yaradan bir sıra amillər qeyd oluna bilər ki, bunlardan biri kimi Fransız inqilabını göstərmək olar [11]. Beləliklə, XIX əsrin son rübündən başlayaraq Osmanlı İmperiyasının şərq vilayətlərini əhatə edən müstəqil Ermənistan qurmaq xülyasının arxasınca gedənlər üçün ən mühüm ilham qaynaqlarından biri, heç şübhəsiz, Fransa İnqilabının nəticəsində ortaya çıxan fikirlər di [6, s.45-60] Fransız İnqilabı azadlıq və bərabərlik kimi məfhumları bütün xalqların, xüsusilə də başqa dövlətlərin hökmranlığı altında yaşayan xalqların beyninə yerləşdirdi. Bu cür liberal anlayışlar zaman keçdikcə xalqın şüurunda və hisslərində millətçilik hərəkatını üzə çıxarmışdır [12, s.2].

Erməni üsyanları və San-Stefano sülhü. Osmanlı İmperatorluğu daxilində Mora üsyanından sonra imzalanan 1829-cu il Ədirnə müqaviləsi ilə müstəqil milli dövlətlərini ilk quran yunanlar oldu. Böyük dövlətlərin, xüsusilə İngiltərə və ABŞ-ın qoruyucu qanadları altında və onların bütün dəstəyi ilə ermənilər də 19-cu əsrin sonlarından etibarən öz müstəqil milli dövlətlərini qurmaq üçün üsyanlara başladılar. Ermənilər bu məqsədlə təşkilatlanaraq əvvəlcə cəmiyyətlər yaratmış, sonralar bu cəmiyyətlərin iştirakı ilə inqilab komitələri qurmuşdular [7].

Əslində, 1880-ci illərdən sonra baş verən 40-a yaxın erməni üsyanlarında, Erməni millətçiliyinə dəstək verən böyük dövlətlərin, Erməni Patriarxlığının, erməni dəstələrinin, missionerlik fəaliyyətinin, kilsələrin, məktəblərin, ermənilər tərəfindən qurulan Hınçak və Daşnak partiyalarının da böyük payı var idi. Bütün bunlarla yanaşı, missionerlik məktəblərində təhsil alıb ABŞ-a gedən erməni gənclərin burada azadlıq və millətçilik anlayışları ilə tanış olub Anadoluya qayıtmaları və burada fəaliyyətə başlamaları da unudulmamalıdır [7].

Bu dövrdə erməni cəmiyyətinin dövlət əleyhinə fikirlərlə təşkilatlanması və erməni gənclərinin radikal millətçilik diskursları ilə hərəkatında Osmanlı İmperiyasında qəbul olunmuş "Tənzimat" və "İslahat" fərmanlarının rolu da qeyd edilməlidir. 1857-1860-cı illər arasında İslahat Fərmanının müddəaları çərçivəsində aparılan araşdırmalar nəticəsində bir növ Ermənistan Konstitusiyası sayılan Nizamnamə-i Millət Ermənisi hazırlanmışdır. Ermənilər Tənzimat və İslahat fərmanları ilə bir çox hüquqlar əldə etməklə yanaşı, bu nizamnamə ilə mövcud hüquqlarını da artırdılar [10, s.85].

Osmanlı İmperatorluğunun parçalanması dövründə onun tərkibindəki etnik qrupların müstəqillik uğrunda üsyana qalxması ermənilərin də eyni hisslərlə hərəkət etməsinə səbəb oldu. Ermənilərin Rusiya tərəfində müharibəyə qatılması və Şərqi Anadoluda xaos yaratması rusların öz tarixi məqsədlərinə çatması üçün bir vasitə kimi dəyərləndirilirdi. Tarix boyu rusların əsas hədəfləri arasında olan isti dənizlər və bu məqsədə çatmaqda ermənilərlə müttəfiq olmaq istəyi San Stefano müqaviləsi ilə üzə çıxdı. Ermənilər də bu vəziyyəti öz xeyirlərinə çevirib Rusiyanın dəstəyini almaq üçün istifadə etmək istəyirdilər [5, s.60].

Rusiya Osmanlı İmperatorluğunun Avropa torpaqlarında parçalamaq cəhdlərini Asiyada xristian azlıqlar üzərində həyata keçirmək istəyirdi. Bolqarıstan üsyanlarını nümunə götürən erməni xalqı böyük dövlətlərdən aldığı dəstək və yardımla fəaliyyət göstərdi. Osmanlı xristianlarının hüquqlarını müdafiə etmək missiyasını üzərinə götürən Rusiya 1877-78-ci illərdə Osmanlı İmperiyası ilə müharibəyə girdi [12, s.2-15]. Xristian icmalarını təşviq edən 1877-1878 Osmanlı-Rusiya müharibəsi nəticəsində Osmanlı İmperiyası ağır zərbələr aldı, rumınlar müstəqilliklərini elan etdi, həmçinin bolqarlar muxtar bir idarəetmə forması əldə etdilər. Bu hadisələr ermənіləri də ruhlandırdı və onlarda müstəqil dövlət qurmaq hisslərini artırdı. Nəticədə müharibədən sonra imzalanmış San-Stefano müqaviləsinin 16-cı maddəsində ermənilər üçün islahatlarla bağlı müddəalar daxil edilmişdi [1, s.126-127].

1878-ci il martın 3-də San-Stefano müqaviləsi ilə siyasi cəbhədə böyük üstünlüklər əldə edən ermənilər ilk dəfə olaraq beynəlxalq platformada səsini duyurmaq şansı qazandılar. Bu səbəbdən də San Stefano müqaviləsi ermənilər üçün böyük əhəmiyyət kəsb edir. San Stefano müqaviləsi ermənilər üçün üç prinsipi ehtiva edirdi:

1) Ermənistan adlı bir ölkə mövcuddur;
2) Ermənistan administrasiyasının islahatlara ehtiyacı vardır;
3) Ermənilərin təhlükəsizliyi kürdlər və çərkəzlər tərəfindən təhdid altındadır [13].

Ruslar guya ermənilərin maraqları naminə tələblər irəli sürərək San-Stefano müqaviləsinə öz maraqlarına uyğun ideyalarını daxil etdilər. Beləliklə, erməni məsələsi ilk dəfə bir müqaviləyə daxil

edildi və bu müqavilə Babı-Ali tərəfindən təsdiqləndi. Rusların əsl məqsədi Şərq məsələsini mümkün qədər tez yekunlaşdırmaqdan ibarət idi. Ermənilər 16-cı maddə ilə Ermənistan adlı bir bölgənin varlığını və idarə edilməsində islahata ehtiyac olduğunu, o cümlədən erməni millətinin kürdlər və çərkəzlər tərəfindən təhdid edildiyini rəsmən qəbul etdirdilər. Bu razılaşmaya görə Rusiyaya qarşı vəd edilən islahatlar dərhal başlayacaq və bu islahatlar tamamlanana qədər rus işğalı davam edəcəkdi. Başqa sözlə desək, rusların Şərqi Anadoludan boşaldılması islahatların həyata keçirilməsindən asılı idi [9, s.19].

Nəticə. Əvvəldən imperialist güclərin təsiri altında olan ermənilər tarixi ambisiya və strategiyalara uyğun olaraq bir çox dövlətlər tərəfindən idarə olunublar. Məhz buna görə tarix boyu Osmanlı İmperiyasında dinc yaşayan ermənilər 19-cu əsrdə oranı tərk etmək istəyiblər. Bu vəziyyətdən fürsət kimi istifadə edən Rusiya və İngiltərə isə azsaylı erməni üsyanlarına dəstək verdilər. Rusiyanın isti dənizlərə çıxmaq istəyi və İngiltərənin Rusiyanı şimalda saxlamaq istəyi bu erməni azlıqlarına strateji şahmatda iştirak etməyə imkan verdi [2, s.65-94].

Odur ki, yaranmış vəziyyətdən faydalanan, bütün səyləri ilə fəaliyyətlərini davam etdirən erməni quldur dəstələri və komitələri, Birinci Dünya Müharibəsi zamanı bir çox cəbhələrdə vuruşan Osmanlı İmperiyasının işini daha da çətinləşdirirdi. Bir tərəfdən komitələr, digər tərəfdən isə daxildə və xaricdəki kilsələr belə qənaətə gəldilər ki, müstəqil Ermənistanın qurulması üçün bundan yaxşı bəhanə ola bilməzdi [12, s.64]. Bu məqsədlə Daşnaksütyun 1914-cü ilin iyununda Ərzurumda keçirilən qurultayda mövcud hökumətin xristianlığa və ermənilərə qarşı davam etdirdiyi siyasəti və apardığı islahatları əsas gətirərək İttihad və Tərəqqi Hökumətinə qarşı müxalif mövqe tutmağa qərar verdi [13]. Qurultayda səslənən iddialara aşağıdakılar daxil idi: "Ermənilərin əksəriyyətinin yaşadığı Türkiyə torpaqları ölkəmizin ən böyük torpaqlarıdır. Bizim məsələmiz Berlin müqaviləsinin 61-ci maddəsi ilə hüquqa çevrilib və bu hüquq digər dövlətlər tərəfindən tanınıb. Osmanlı İmperiyası zəiflədiyi və parçalandığı üçün aşağıdakı məsələlərin həyata keçirilməsi tarixi zərurətə çevrilmişdir [13]:

A. Erməni komitəsinin üzvləri bütün səylərini erməni davası üçün sərf edəcəklər.

B. Bu vəziyyətə görə inqilabın mübarizə meydanı Türkiyədə yaşayan ermənilərin meydanı olacaq.

C. Ermənilərin gələcəyini Osmanlı İmperiyasının taleyindən ayırmaq "Ermənilərin məqsədinin birinci şərti Ermənistanın müstəqilliyidir".Erməni quldur dəstələri Anadoluda qırğınlara cəhd göstərmiş və bununla da xalqa sadiqlik borcunu yerinə yetirmişlər".

Bu hadisələrdən sonra 1920-ci ildəki Sevr müqaviləsi ilə Şərqi Anadolu torpaqlarının böyük bir hissəsi ermənilərə verildi. Lakin Ankara hökuməti bu müddəaları qəbul etmədi. Bu gün qəbul edilən Türkiyə-Ermənistan sərhədi 1920-ci ildə imzalanan Gümrü müqaviləsinə əsasən müəyyənləşdirilib və bu sərhəd 1921-ci ildə Qars müqaviləsi ilə yekunlaşdırılıb. Daha sonra 1923-cü ildə imzalanan Lozanna müqaviləsinin 31-ci maddəsi ilə Türkiyə ərazisini tərk edən ermənilərə öz vətənlərinə qayıtmaq imkanı verilirdi [9, s.39-50]. Lakin Türkiyənin mötədil münasibətinə baxmayaraq, 1923-1965-ci illər arasında, xüsusən də ABŞ-da Lozanna müqaviləsinə qarşı kampaniyalar aparıldı. Həmin illərdə ermənilərı təmsil edən Hınçak və Daşnaksütyun komitələri arasında fikir ayrılıqları və qarşıdurmalar baş verdi. Göstərilən dövrlər ərzində erməni problemi günümüzə qədər gəlib çatmış problem kimi özünü göstərmişdir [11].

ƏDƏBİYYAT

1. Akçora, Ergünöz, (2001), "Osmanlı Devleti Döneminde Ermeni İsyanları", Osmanlı'dan Günümüze Ermeni Sorunu, Yeni Türkiye Yayınları, Ankara.
2. Anadol, Cemal, (2001), Tarih Işığında Ermeni Dosyası, IQ Kültür Sanat Yayıncılık.
3. Ayverdi, Semiha, (2005), Türkiye'nin Ermeni Meselesi, Kubbealtı Yayınları, İstanbul.
4. Babayeva, Ş., Alıyev, C., Əliyev, Ə., Məmmədov, M., Əmirova, S., Zeynalova, H., Babayeva, K., Sadıxova, L., Fərhatlı, S., Əhmədova, N., Dəmirova, C., Qubadova, Ə., "Etnopsixologiya", bakalavriat hazırlığı üçün dərs vəsaiti, Azərbaycan Respublikasi Təhsil Nazirliyi Azərbaycan Dillər Universiteti Psixologiya kafedrası, Bakı, 2020, s.347.
5. Balcı Gökhan; Türkler Soykırım Yaptı mı? Truva Yayınları, İstanbul, 2007.
6. Gürün, Kâmuran, (2010), Ermeni Dosyası, 10. Baskı, Remzi Kitapevi, İstanbul.

7. Halaçoğlu Ahmet, Ermeni Milliyetçiliği ve Ayrılıkçı Faaliyetlerinin Kökenleri, İl Millî Eğitim Müdürlüğü, AR-GE kısmı, Adana.
8. Halaçoğlu Yusuf, XVIII. yüzyılda Osmanlı İmparatorluğu'nun iskân siyaseti ve aşiretlerin yerleştirilmesi, Türk Tarih Kurumu, 2014 - 244 sayfa.
9. Kantarcı Şenol, "Tarihi Boyutuyla Ermeni Sorunu: Başlangıçtan Lozan'a", Ermeni Sorunu El Kitabı (Genişletilmiş İkinci Baskı), Ankara Üniversitesi Basımevi.
10. Koçaş,S. Tarihte Ermeniler Ve Türk-Ermeni İlişkileri, İstanbul, 1990, S. 57.
11. Külekçi Cahit, Fransız İhtilali ve Ermeni Milliyetçiliğinin Doğuşu, İ.Ü. İlahiyat Fakültesi Dergisi, Bahar 2014/5(1) 151-170.
12. Süslü, Azmi, (1995), Türk Tarihinde Ermeniler, Kars Kafkas Üniversitesi Rektörlüğü Yayınları, Ankara.
13. Uras, Esat (1987); Tarihte Ermeniler Ve Ermeni Meselesi, 2. Baskı, İstanbul Üniversitesi Atatürk İlkeleri Ve İnkılap Tarihi Uygulama Merkezi Yayın No: 5, Bursa.

ФИДАН ХАЛИЛОВА
Докторант кафедры международных отношений и внешней политики
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики

ИСТОРИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ АРМЯНСКОГО НАЦИОНАЛИЗМА

В формировании национальной идентичности каждого народа играют большую роль его уникальные морально-психологические характеристики, нравы, традиции и история. В силу этих причин при исследовании национальной идентичности и этнопсихологических особенностей народа, важно изучать исторический путь его развития. Так что данная статья исследует исторические факты, послужившие основой возникновения армянского национализма. В статье автор подчеркивает ряд факторов, влияющих на формирование армянского национализма. Так в исследовании анализируются ряд событий, произошедших в Османской империи в годы Первой мировой войны, а также Французская революция и её воздействия, армянские восстания и т.д. Наряду с этим, в статье автором исследуется влияние российско-османских отношений, а также геополитических интересов других государств на развитие армянского национализма в указанный период.

Ключевые слова: армянский национализм, Османская империя, Россия, Первая мировая война, Французская революция, армянские восстания.

FIDAN KHALILOVA
Ph.D. candidate, Department of International Relations and Foreign Affairs,
Academy of Public Administration under the President of the Republic of Azerbaijan

THE HISTORICAL FOUNDATIONS OF ARMENIAN NATIONALISM

The unique moral and psychological characteristics, customs, traditions and history of each nation play an important role in the formation of its national identity. For these reasons, when studying the national identity and ethno-psychological characteristics of a nation, it is important to examine the historical path of its development. Therefore, this article explores the historical facts that served as the basis for the emergence of Armenian nationalism. In the article, the author highlights a number of factors influencing the formation of Armenian nationalism. In this context, the study analyses a series of events that took place in the Ottoman Empire during the World War I, as well as the French

Revolution and its aftermath, the Armenian uprisings, etc. In addition, the author explores the influence of Russian-Ottoman relations as well as the geopolitical interests of other states on the development of Armenian nationalism in the mentioned period.

Keywords: Armenian nationalism, Ottoman Empire, Russia, World War I, French Revolution, Armenian uprisings.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: s.e.d. Elçin Əhmədov, s.e.d. Adil Mirabdullayev.